Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin 19.02.2024-cü il tarixli 2417040100185500 №-li əmri ilə təsdiq edilmişdir

# Vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə uçota alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydası

## 1. Ümumi müddəalar

1.1. "Vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə uçota alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydası" (bundan sonra – Qayda) Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra – Vergi Məcəlləsi) 33.2-ci maddəsinə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydanın məqsədi vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə uçota alınması, yenidən uçota alınması və uçotdan çıxarılması, vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin dayandırılması və bərpası qaydalarını və bu prosesdə vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərini müəyyən etməkdir.

1.3. Bu Qaydanın müddəaları xarici hüquqi şəxslərin nümayəndəlik və ya filiallarına, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi şəxslərin ayrıca VÖEN ilə uçota alınan Vergi Məcəlləsinin 13.2.39.3-cü maddəsində göstərilən filiallarına, struktur bölmələrinə və ya digər ayrıca bölmələrinə, Azərbaycan Respublikasının büdcə və qeyri-kommersiya təşkilatlarının olduğu yerdən kənarda yerləşən və onların funksiyalarının həyata keçirilməsi məqsədilə ayrıca VÖEN ilə uçota alınan bölmələrinə şamil edilmir.

1.4. Bu Qaydanın əlavələrində qeyd edilən bildiriş və arayışlar vergi ödəyicisinin elektron kabinetinə göndərilir. Vergi ödəyicisi tərəfindən arayış və bildirişin kağız daşıyıcıda təqdim edilməsi tələb edildiyi hallarda vergi orqanı arayış və bildirişi kağız daşıyıcıda təqdim edir.

1.5. Bu Qaydada göstərilən və vergi ödəyicisi tərəfindən təqdim edilən ərizə (arayış) formalarına əlavə edilməli sənədlərin və ya məlumatların Vergi Məcəlləsinin 24.2-ci maddəsinin tələblərinə uyğun olaraq Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar vergi ödəyicisindən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi vergi ödəyicisinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya vergi ödəyicisi tərəfindən təmin edilir.

1.6. Digər təsərrüfat subyekti (obyekti) ilkin olaraq **Vergi Coğrafi İnformasiya Sistemində** qeydiyyata alınır. Daşınar hərəkətsiz və ya daşınmaz əmlaka dair əmlak, foto, və ünvan məlumatları **Vergi Coğrafi İnformasiya Sisteminə** daxil edilərək digər təsərrüfat subyektinə (obyektinə) sistem tərəfindən İD nömrə verilir. Daha sonra həmin əmlakın coğrafi sərhədləri daxilində yerləşən digər təsərrüfat subyektlərinin (obyektlərinin) vergi orqanlarında uçota alınmasına icazə verilir.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydanın məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə olunur:

2.1.1. **Filial** – hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və onun funksiyalarının hamısını və ya bir hissəsini, o cümlədən nümayəndəlik funksiyalarını həyata keçirən və olduğu yer üzrə vergi orqanlarında uçota alınmış ayrıca bölmədir.

2.1.2. **Nümayəndəlik** – hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və hüquqi şəxsin mənafelərini təmsil və müdafiə edən və olduğu yer üzrə vergi orqanlarında uçota alınmış ayrıca bölmədir.

2.1.3. **Digər təsərrüfat subyekti (obyekti)** – malların (işlərin, xidmətlərin) təqdim edilməsinin həyata keçirildiyi, həmçinin vergi ödəyicisinin gəlirlərinin formalaşmasında iştirak edən və olduğu yer üzrə vergi orqanlarında uçota alınmış aşağıdakı yerlər:

2.1.3.1. **Daşınmaz digər təsərrüfat subyekti (obyekti)** – torpaq sahələri, yer təki sahələri, binalar, qurğular və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) obyektlər, həmçinin vergi ödəyicisinin gəlirlərinin formalaşmasında iştirak edən digər yerlər.

2.1.3.2. **Daşınar digər təsərrüfat subyekti (obyekti)** – malların (işlərin, xidmətlərin) təqdim edilməsinin həyata keçirilə biləcəyi avtonəqliyyat vasitələri, mühərriki olan və ya olmayan su və hava nəqliyyatı vasitələri, furqonlar, qoşqular (yarımqoşqular), köşklər, digər ticarət-texnoloji avadanlıqlar və təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olan bu kimi əmlakdır. Daşınar digər təsərrüfat subyekti (obyekti) 2 növ (hərəkətli, hərəkətsiz) üzrə təsnifləşdirilir. Hərəkətli və hərəkətsiz daşınar digər təsərrüfat subyekti (obyekti) POS-terminalların, nəzarət-kassa aparatının quraşdırılması məqsədilə uçota alına bilərlər.

2.1.3.2.1. **Hərəkətsiz daşınar digər təsərrüfat subyekti (obyekti)** – stasionar qaydada (parklarda və ya iri ticarət mərkəzlərinin qarşısında və s.) quraşdırılmış və ya qoyulmuş furqonlar, avtodükanlar, köşklər və digər bu tipli daşınar obyektlər.

2.1.3.2.2. **Hərəkətli daşınar digər təsərrüfat subyekti (obyekti)**- qeyri-stasionar qaydada fəaliyyət göstərən nəqliyyat vasitələri, o cümlədən mühərriki olan və ya olmayan su və

hava nəqliyyatı vasitələri, qoşqular (yarımqoşqular), avtodükanlar, digər ticarət-texnoloji avadanlıqlar.

2.1.4. **Arayış** – vergi ödəyicisinin filialının, nümayəndəliyinin və digər təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə vergi orqanında uçota alınmasını və uçotdan çıxarılmasını əks etdirən sənəddir (Əlavə 1, Əlavə 2).

2.1.5. **Vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyekti) uçot kodu** – on beş rəqəmli olur və ilk on rəqəmi vergi ödəyicisinin VÖEN-ini, sonrakı beş rəqəmi yerləşdiyi ərazi inzibati vahidinin kodunu (filial, nümayəndəlik Azərbaycan Respublikasının hüdudlarından kənarda mövcud olduqda, yerləşdiyi ölkənin adının abreviaturasını) və həmin ərazi üzrə vergi ödəyicisinə aid uçota alınmış filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) sıralama sayını təşkil edir.

2.1.6. **Elektron kabinet** – vergi ödəyicisi kimi uçota alınma zamanı təqdim edilən ərizəyə əsasən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (bundan sonra – Dövlət Vergi Xidməti) informasiya sistemində yaradılan, gücləndirilmiş elektron imza ilə daxil olmağa imkan verən, vergi ödəyicisi ilə vergi orqanı arasında qarşılıqlı məlumat mübadiləsini təmin edən fərdi elektron səhifədir.

2.1.7. **Vergi Coğrafi İnformasiya Sistemi (bundan sonra - VCİS) -** Dövlət Vergi Xidmətinin Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən təqdim edilən kadastr, reyestr və ünvan məlumatları əsas götürülməklə kommersiya və qeyri-kommersiya fəaliyyətinin həyata keçirildiyi daşınmaz əmlaklara dair atribut məlumatlarının saxlanması, emalı və təsviri üçün istifadə edilən rəqəmsal platforma .

2.1.8. **Digər təsərrüfat subyektinin (obyektinin) unikal kodu (bundan sonra - unikal kod)** - daşınar hərəkətli digər təsərrüfat subyekti (obyekti) istisna olmaqla rəsmi ünvan (və ya müvəqqəti giriş) məlumatları, habelə coğrafi koordinatlar əsas götürülməklə vergi ödəyicisinə məxsus digər təsərrüfat subyektinə (obyektinə) VCİS-də xüsusi alqoritm ilə verilən təkrarlanmayan, hərf və rəqəmlərdən ibarət vahid kod.

2.1.9. **Digər təsərrüfat subyektinin (obyektinin) İD nömrəsi –** VCİS sistemində qeydiyyata alınmış hər bir əmlaka və digər təsərrüfat subyektlərinə (obyektlərinə) verilmiş təkrarlanmayan və rəqəmlərdən ibarət olan sıralama nömrəsidir.

## 3. Vergi ödəyicisinin filialının, nümayəndəliyinin olduğu yer üzrə uçota alınması, yenidən uçota alınması və uçotdan çıxarılması

3.1. Vergi ödəyicisi tərəfindən filialın və ya nümayəndəliyin olduğu yer üzrə uçota alınması üçün “Vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə vergi uçotuna alınması haqqında” ərizə kağız daşıyıcısında və ya elektron formada tərtib edilərək vergi orqanına təqdim edilir.

3.2. Ərizəyə aşağıdakı sənədlərin surəti əlavə edilir:

3.2.1. filial və ya nümayəndəliyin müvafiq qaydada təsdiq edilmiş əsasnaməsi;

3.2.2. filial və ya nümayəndəliyin rəhbərinin təyin edilməsi barədə qərar (əmr);

3.2.3. rəhbərin şəxsiyyətini təsdiq edən sənəd;

3.2.4. filialın və ya nümayəndəliyin fəaliyyət göstərdiyi ünvanı təsdiq edən sənəd (mülkiyyət hüququnu təsdiq edən sənəd, icarə (subicarə) müqaviləsi, istifadə hüququnu təsdiq edən digər sənədlər);

3.2.5. bankların və digər kredit təşkilatlarının filialı uçota alındığı zaman fəaliyyətin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən verilmiş icazə sənədi;

3.2.6. sənədlər səlahiyyətli şəxs tərəfindən təqdim edildikdə ona verilmiş etibarnamə.

3.3. Ərizəyə və ona əlavə edilmiş sənədlərə 2 iş günü ərzində baxılır və uyğunsuzluq (çatışmazlıqlar) aşkar edilmədikdə vergi ödəyicisinə filialının və ya nümayəndəliyinin uçota alınması barədə bu Qaydanın 1 nömrəli Əlavəsinə uyğun olaraq arayış göndərilir.

3.4. Vergi ödəyicisi filialının və ya nümayəndəliyin vergi orqanında uçota alınmaq üçün verdiyi ərizə formasında olan məlumatlarda hər hansı dəyişiklik baş verdikdə, dəyişiklik baş verən gündən 40 gün müddətində vergi orqanına “Vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə vergi uçotuna alınması haqqında” ərizədə müvafiq dəyişiklik qeyd edilməklə (dəyişiklik bu Qaydanın 3.2-ci bəndinə əsasən təqdim edilmiş sənədləri əhatə etdiyi halda bu Qaydanın 1.5-ci bəndi nəzərə alınmaqla həmin sənədlərin surətləri) təqdim edilir.

3.5. Təqdim edilmiş ərizə və sənədlərdə hər hansı bir uyğunsuzluq (çatışmazlıqlar) aşkar edildikdə bu barədə vergi ödəyicisinə 2 iş günündən gec olmayaraq forması bu Qaydanın 3 nömrəli Əlavəsinə uyğun olaraq bildiriş göndərilir.

3.6. Vergi ödəyicisi tərəfindən bildirişdə göstərilən uyğunsuzluqlar (çatışmazlıqlar) aradan qaldırılmaqla sənədlər və “Vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə vergi uçotuna alınması haqqında” ərizə yenidən vergi orqanına təqdim edilir.

3.7. Vergi ödəyicisinin filialının və ya nümayəndəliyinin ünvanı bir rayon (şəhər) ərazisindən digər rayon (şəhər) ərazisinə dəyişdikdə həmin filial və ya nümayəndəlik bu Qaydanın 3.1-ci və 3.2-ci bəndlərinə uyğun olaraq yeni ünvan üzrə yenidən uçota alınır. Filial və ya nümayəndəliyin əvvəlki ünvan üzrə uçotdan çıxarılması üçün vergi orqanına “Vergi

ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) vergi uçotundan çıxarılması haqqında" ərizə təqdim edilir.

3.8. Hüquqi şəxsin qərarına əsasən filial və ya nümayəndəlik ləğv edildikdə vergi ödəyicisi tərəfindən vergi orqanına bu Qaydanın 3.7-ci bənddə göstərilən ərizə təqdim edilir. Ərizəyə 2 iş günü ərzində baxılır.

3.9. Vergi ödəyicisinin filialı və ya nümayəndəliyi uçotdan çıxarıldıqda vergi ödəyicisinə 2 iş günündən gec olmayaraq forması bu Qaydanın 2 nömrəli Əlavəsinə uyğun olaraq arayış göndərilir.

## 4. Vergi ödəyicisinin digər təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə uçota alınması

4.1. Vergi ödəyicisi tərəfindən digər təsərrüfat subyekti (obyekti) olduğu yer üzrə uçota alınması üçün "Vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə vergi uçotuna alınması haqqında" ərizə kağız daşıyıcısında və ya elektron formada tərtib edilərək vergi orqanına təqdim edilir.

4.2. Vergi orqanı tərəfindən ərizəyə və ona əlavə edilmiş sənədlərə 2 iş günü ərzində baxılır, bu Qaydanın 4.17.1-4.17.3-cü bəndlərində qeyd olunmuş uyğunsuzluqlar (çatışmazlıqlar) aşkar edildikdə, vergi ödəyicisinə uçot strukturu tərəfindən digər təsərrüfat subyektinin (obyektinin) uçota alınmasından imtina edilməsi barədə bu Qaydanın 3 nömrəli əlavəsinə uyğun olaraq bildiriş göndərilir.

4.3. Təqdim edilmiş ərizədə ilkin olaraq uyğunsuzluq (çatışmazlıqlar) aşkar edilmədikdə, uçot strukturu tərəfindən işlənmiş ərizə məlumatları proqram təminatı vasitəsilə sahə təhkimçiliyi funksiyalarını həyata keçirən struktura ötürülür.

4.4. Sahə təhkimçiliyi funksiyalarını həyata keçirən struktur tərəfindən ərizə məlumatlarının dəqiqləşdirilməsi məqsədilə 5 iş günü ərzində bu Qaydanın 9 nömrəli Əlavəsində göstərilən akt tərtib edilir.

4.5. Sahə təhkimçiliyi funksiyalarını həyata keçirən struktur tərəfindən digər təsərrüfat subyekti (obyekti) VCİS-də qeydiyyata alındıqdan sonra bu Qaydanın 4.3-cü bəndinə uyğun olaraq daxil olmuş digər təsərrüfat subyektinin (obyektinin) məlumatlarına obyektin VCİS-də mövcud olan İD nömrəsi əlavə edilərək, məlumatlar proqram təminatı vasitəsi ilə uçot strukturuna göndərilir.

4.6. Uçot strukturu tərəfindən məlumatlar məqbul hesab edildiyi halda 1 iş günü ərzində aşağıdakı işlər göstərilən ardıcıllıqla həyata keçirilir:

4.6.1. VCİS-də qeydiyyata alınmış digər təsərrüfat subyektinin (obyektinin) məlumatları təsdiq edilir;

4.6.2. VCİS-də digər təsərrüfat subyektinin (obyektinin) unikal kodu müəyyən edilərək vergi informasiya sistemindəki məlumatlara daxil edilir;

4.6.3. Vergi informasiya sistemində sahə təhkimçiliyi funksiyalarını həyata keçirən strukturdan daxil olmuş faktiki məlumatlarla ərizə məlumatları müqayisə olunaraq, düzəliş edilməsi mümkün olan məlumatlara düzəliş edilməklə (ünvan məlumatları, obyektin sahəsi, adı, fəaliyyət növü) digər təsərrüfat subyekti (obyekti) uçota alınır və vergi ödəyicisinə digər təsərrüfat subyektinin (obyektinin) uçota alınması barədə bu Qaydanın 1 nömrəli Əlavəsinə uyğun olaraq arayış göndərilir;

4.6.4. VCİS-ə qeydiyyata alınmış digər təsərrüfat subyektinin (obyektinin) vergi məlumatları əlavə edilir.

4.7. Sahə təhkimçiliyi funksiyalarını həyata keçirən strukturdan bu Qaydanın 4.17.4-4.17.7-ci bəndlərində göstərilən imtina səbəbləri ilə bağlı məlumatlar daxil olduqda vergi ödəyicisinə uçot strukturu tərəfindən 1 iş günü ərzində digər təsərrüfat subyektinin (obyektinin) uçota alınmasından imtina edilməsi barədə bu Qaydanın 3 nömrəli Əlavəsinə uyğun olaraq bildiriş göndərilir.

4.8. Bu Qaydanın 4.1-ci bəndində qeyd edilən ərizəyə Qaydanın 1.5-ci bəndi nəzərə alınmaqla digər təsərrüfat subyektinin (obyektinin) ünvanını təsdiq edən aşağıdakı hallara uyğun sənədlərdən birinin surəti əlavə edilir:

4.8.1. Mülkiyyət hüququnu təsdiq edən sənəd:

4.8.1.1. Daşınmaz əmlakın dövlət reyestrindən çıxarış;

4.8.1.2. 2006-cı il iyulun 6-dək verilmiş daşınmaz əmlak üzərində hüquqları təsdiq edən aktlar;

4.8.1.3. 2006-cı il iyulun 6-dək verilmiş daşınmaz əmlak üzərində hüquqları təsdiq edən qeydiyyat vəsiqəsi (şəhadətnamə);

4.8.1.4. Azərbaycan Respublikasının Mənzil Məcəlləsi qüvvəyə minənədək mənzilə verilmiş order;

4.8.1.5. əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün əsas olan digər sənədlər.

4.8.2. Vərəsəlik şəhadətnaməsi və ya vərəsə təyin olunma barədə müvafiq notariusun sənədi.

4.8.3. İcarə və ya subicarə müqaviləsi;

4.8.4. Birgə fəaliyyət müqaviləsi;

4.8.5. Fiziki şəxs olan vergi ödəyicisinin fəaliyyət göstərdiyi digər təsərrüfat subyektinin (obyektinin) mülkiyyətçisi qismində onun əri (arvadı), valideyni, övladı, nəvəsi, baba və ya

nənəsi çıxış etdiyi halda, aralarında daşınmaz əmlaka münasibətdə bağlanmış əvəzsiz istifadə müqaviləsi və ona əlavə edilmiş aşağıdakı sənədlərin surəti:

4.8.5.1. müqavilə ər ilə arvad arasında bağlandıqda nikah şəhadətnaməsi;

4.8.5.2. müqavilə övladla valideyn arasında bağlandıqda övladın doğum haqqında şəhadətnaməsi;

4.8.5.3. müqavilə baba ilə nəvə arasında bağlandıqda nəvənin və onun valideyninin doğum haqqında şəhadətnaməsi;

4.8.5.4. müqavilə nənə ilə nəvə arasında bağlandıqda nəvənin və onun valideyninin doğum haqqında şəhadətnaməsi;

4.8.5.5. müqavilə qardaş (bacı) ilə bacı (qardaş) arasında bağlandıqda hər ikisinin doğum haqqında şəhadətnaməsi.

4.8.6. Vergi ödəyicisinin mülkiyyətində olan tikili, torpaq sahəsində və ya həyətyanı təsərrüfatda yerləşmiş (tikilmiş) obyektlər üzrə, əgər onların ayrıca mülkiyyəti təsdiq edən sənədi olmadıqda:

4.8.6.1. mənzil tikinti kooperativi ilə bağlanılmış alqı-satqı müqaviləsi və maliyyə arayışı;

4.8.6.2. daşınmaz əmlakın texniki pasportu;

4.8.6.3. yerli icra hakimiyyəti orqanı tərəfindən verilmiş qərar, sərəncam və ya həmin sənədlərdən çıxarış;

4.8.6.4. bələdiyyə tərəfindən verilmiş qərar, sərəncam və ya həmin sənədlərdən çıxarış;

4.8.6.5. yerli icra hakimiyyəti orqanı tərəfindən verilmiş tikintiyə icazə sənədi;

4.8.6.6. səlahiyyətli dövlət qurumu tərəfindən təsdiq edilmiş eskiz layihəsi;

4.8.6.7. sovxozlar (məsələn: Südçülük sovxozu, Donuzçuluq sovxozu) tərəfindən verilmiş arayış

4.8.6.8. işğaldan azad olunmuş ərazilər üzrə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin razılığı

4.8.7. daşınar digər təsərrüfat subyektinin (obyektinin) mülkiyyət hüququnu təsdiq edən sənədi olmadıqda:

4.8.7.1. alqı-satqı müqaviləsi;

4.8.7.2. yerli icra hakimiyyəti orqanı tərəfindən verilmiş daşınar əmlaka istifadə hüququnu təsdiq edən sənəd;

4.8.7.3. elektron-qaimə faktura;

4.8.7.4. daşınar əmlakın texniki pasportu (texniki pasportda qeyd edilən şəxslə müraciət edən şəxs fərqli olduğu halda, daşınar əmlakla əlaqədar zəruri səlahiyyətlərin (sərəncam, icarə, istifadə) müraciət edən şəxsə verilməsi ilə bağlı etibarnamə və ya icarə müqaviləsi təqdim edilir).

4.9. Bu Qaydanın 4.8.1-ci (4.8.1.1-ci bənd istisna olmaqla), 4.8.2-ci və 4.8.6-cı yarımbəndlərində qeyd edilən sənədlərin notarial qaydada təsdiq edilmiş surətləri təqdim edilməlidir. Qaydanın 4.8.3-cü, 4.8.4-cü, 4.8.5-ci və 4.8.6.1-ci yarımbəndlərində qeyd edilən müqavilələr notarial qaydada təsdiq edilmiş və ya mülkiyyətçi tərəfindən gücləndirilmiş imza ilə imzalanmış formada təqdim edilməlidir.

4.10. Uçota alınan digər təsərrüfat subyekti (obyekti) birgə mülkiyyətdə olduqda birgə mülkiyyətin mülkiyyətçilərinin notarial qaydada təsdiq edilmiş razılıq ərizəsi “Vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə vergi uçotuna alınması haqqında” ərizəyə əlavə edilir.

4.11. Uçota alınan digər təsərrüfat subyekti (obyekti) paylı mülkiyyətdə olduqda mülkiyyətçi öz payına düşən hissəni və ya digər paylı mülkiyyətçilərlə notarial qaydada təsdiq edilmiş icarə müqaviləsi bağlamaqla tam hissəni uçota ala bilər.

4.12. Malların (işlərin, xidmətlərin) təqdim edilməsi hüquqi şəxslərin hüquqi ünvanlarında həyata keçirildiyi halda, həmin ünvan digər təsərrüfat subyekti (obyekti) kimi vergi orqanında uçota alınmalıdır.

4.13. İcarəyə verən vergi ödəyicisi olduğu halda, digər təsərrüfat subyekti (obyekti) (daşınmaz əmlakın dövlət hakimiyyəti orqanları, büdcə təşkilatları və yerli özünü idarəetmə orqanları, dövlətin adından yaradılan publik hüquqi şəxslər tərəfindən icarəyə verilməsi, daşınar əmlakın uçota alınması halları istisna olmaqla) onun adına vergi orqanında uçota alındıqdan sonra icarəyə götürən vergi ödəyicisi üzrə həmin digər təsərrüfat subyektinin (obyektinin) uçota alınması həyata keçirilir.

4.14. İcarəyə verən fiziki şəxs vergi ödəyicisi olmadığı halda, icarəyə verənin həmin digər təsərrüfat subyektinin (obyektinin) yerləşdiyi ünvan üzrə uçota alınması tələb olunmur. İcarəyə verən fiziki şəxs vergi uçotunda olduqda və “Fiziki şəxsin uçotdan çıxarılması haqqında ərizə” təqdim etdikdə, icarəyə verənin həmin digər təsərrüfat subyektinin (obyektinin) yerləşdiyi ünvan üzrə uçota alınması tələb olunmur.

4.15. “Fiziki şəxsin uçotdan çıxarılması haqqında ərizə” təqdim etmiş fiziki şəxsin digər təsərrüfat subyekti (obyekti) icarədə olduğu halda, icarəyə götürən vergi ödəyicisi tərəfindən məlumat dəyişikliyi ərizəsi əsasında və ya vergi orqanı tərəfindən icarəyə verilən digər təsərrüfat subyektinin (obyektinin) kodu mülkiyyətçinin FİN-i ilə əvəz edilməlidir.

4.16. Hüquqi şəxs ləğv prosesində olduğu halda, əmlak Azərbaycan Respublikasının Mülki Məcəllənin 61-ci maddəsinə əsasən onun təsisçiləri arasında bölündüyü üçün icarəyə götürən tərəfindən digər təsərrüfat subyektinin (obyektinin) məlumat dəyişikliyi üçün “Vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə vergi uçotuna alınması haqqında ərizə” təqdim edilir və icarəyə verilən digər təsərrüfat subyektinin

(obyektinin) kodu təsisçinin (təsisçilərin) FİN-i (FİN-ləri) ilə əvəz edilir. İcarəyə götürən tərəfindən icarəyə verilən digər təsərrüfat subyektinin (obyektinin) kodu təsisçinin (təsisçilərin) FİN-i (FİN-ləri) ilə əvəz edilmədikdə icarəyə verilən digər təsərrüfat subyekti (obyekti) uçotdan çıxarılmır.

4.17. Aşağıda qeyd olunan hallar digər təsərrüfat subyektinin (obyektin) qeydiyyata alınmasından imtina üçün əsasdır:

4.17.1. Ərizə məlumatları ilə təqdim edilən sənədlər arasında kənarlaşmalar mövcud olduqda, təqdim edilən sənədlər qanunvericiliyə, bu Qaydanın tələblərinə zidd olduqda və ya onlarda hər hansı bir çatışmazlıq aşkar edildikdə;

4.17.2. Vergi ödəyicisinin faktiki fəaliyyət göstərdiyi digər təsərrüfat subyektinin (obyektinin) sahəsi icarəyə (subicarəyə) verilən digər təsərrüfat subyektinin (obyektinin) ümumi sahəsindən çox olduqda;

4.17.3. Uçota qoyulması üçün müraciət edilən digər təsərrüfat subyektinin (obyektinin) vergi orqanında özünün və ya digər vergi ödəyicisinin adına uçotda olduğu müəyyən edildikdə;

4.17.4. Digər təsərrüfat subyektinin (obyektinin) uçotunun Vergi Məcəlləsinin 13.2.70-ci maddəsində müəyyən edilən vergidən yayınma sxemi məqsədləri üçün həyata keçirilməsi Vergi Məcəlləsinin 23.1.6-1-ci maddəsinə uyğun olaraq vergi yoxlaması ilə təsdiq edildikdə;

4.17.5. Vergi ödəyicisinin faktiki fəaliyyət göstərdiyi digər təsərrüfat subyektinin (obyektinin) sahəsi müqavilə üzrə icarəyə (sub-icarəyə) verilən və ya mülkiyyət sənədinə əsasən ərizədə göstərilən sahədən fərqləndikdə;

4.17.6. Uçota alınması istənilən digər təsərrüfat subyektinin (obyektinin) faktiki mövcud olmadığı müəyyən edildikdə;

4.17.7. Bu Qaydanın tələblərindən irəli gələrək digər təsərrüfat subyektinin (obyektinin) faktiki vəziyyəti barədə Akt tərtib edilməsinə şərait yaradılmadıqda.

4.18. Vergi ödəyicisi tərəfindən bildirişdə göstərilən uyğunsuzluqlar (çatışmazlıqlar) aradan qaldırıldıqdan sonra sənədlər və “Vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə vergi uçotuna alınması haqqında” ərizə yenidən vergi orqanına təqdim edilir.

4.19. Bu Qaydanın 4.8-ci bəndində göstərilən sənədlər olmadığı halda, digər təsərrüfat subyekti (obyekti) bu Qaydanın 6 nömrəli Əlavəsinə uyğun tərtib edilmiş sərbəst akt əsasında uçota alınır.

4.20. Vergi ödəyicisi tərəfindən təqdim edilmiş ərizədə sənədsiz digər təsərrüfat subyektinin (obyektinin) sərbəst akt əsasında uçota alınması istənildikdə, ərizədə müvafiq xana qeyd edilir və bu Qaydanın 4.3-4.6-cı bəndlərinə qeyd olunan işlər yerinə yetirilir.

4.21. Vergi ödəyicisi tərəfindən digər təsərrüfat subyektinin (obyektinin) uçotu barədə ərizəyə bu Qaydanın 4.8.6.2-4.8.6.7-ci yarımbəndlərində göstərilən sənədlər əlavə edildikdə və

ya sərbəst akt əsasında qeydiyyata qoyulması istənildikdə, sahə təhkimçiliyi funksiyalarını həyata keçirən struktur tərəfindən daşınmaz əmlakın mülkiyyətçisindən vergi orqanına təqdim olunan sənədlərin (məlumatların) tamlığı (düzgünlüyü) və yanlış məlumatın verilməsinə görə qanunvericiliklə məsuliyyət daşıması barədə alınmış iltizam akta əlavə edilərək uçot strukturuna ötürülür.

## 5. Vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) məlumatlarının dəyişdirilməsi

5.1. Vergi ödəyicisinin digər təsərrüfat subyektinin (obyektinin) məlumatlarının dəyişdirilməsinə 2 halda yol verilir:

5.1.1. Vergi ödəyicisinin təqdim etdiyi “Vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə vergi uçotuna alınması haqqında” ərizəyə əsasən:

5.1.1.1 Ərizəyə uçot strukturu tərəfindən 2 iş günü ərzində baxılır. Məlumat dəyişikliyi digər təsərrüfat subyektinin (obyektinin) adı, fəaliyyət növü və icarə münasibətlərinin dəyişdirilməsi ilə bağlı olan hallar istisna olmaqla digər hallarda ərizənin icrası uçot strukturu tərəfindən həyata keçirilir.

5.1.1.2. Məlumat dəyişikliyi digər təsərrüfat subyektinin (obyektinin) adı, fəaliyyət növü və icarə münasibətlərinin dəyişdirilməsi ilə bağlı olduqda ilkin olaraq məlumat dəyişikliyi VCİS-də aparılmalıdır. Həmin məlumatların yerində dəqiqləşdirilərək VCİS-də 5 iş günü ərzində yenilənməsi (obyektin faktiki əmlak, vergi məlumatlarının və fotoşəkillərinin) məqsədilə proqram təminatı vasitəsilə sahə təhkimçiliyi funksiyalarını həyata keçirən struktura ötürülür.

5.1.1.3. Sahə təhkimçiliyi funksiyalarını həyata keçirən struktur tərəfindən məlumat dəyişikliklərinə münasibət bildirildikdən və VCİS-də məlumatlar yeniləndikdən sonra digər təsərrüfat subyektinin (obyektinin) İD nömrəsi vergi informasiya sisteminə daxil edilir.

5.1.1.4. Uçot strukturuna proqram təminatı vasitəsi ilə məlumat daxil olduqdan sonra 1 iş günü ərzində sahə təhkimçiliyi funksiyalarını həyata keçirən struktur tərəfindən daxil edilmiş İD nömrəsinə müvafiq digər təsərrüfat subyektinin (obyektinin) unikal kodu müəyyən edilərək vergi informasiya sisteminə daxil edilir və ərizənin icrası həyata keçirilir. Bundan sonra proqram təminatı tərəfindən bu Qaydanın 5 nömrəli Əlavəsinə uyğun olaraq bildiriş yaradılır və vergi ödəyicisinə göndərilir.

5.1.1.5. Ərizədə və sənədlərdə hər hansı bir uyğunsuzluq (çatışmazlıq) aşkar edildikdə və ya sahə təhkimçiliyi funksiyalarını həyata keçirən struktur tərəfindən ərizə məlumatları təsdiq

olunmadıqda uçot strukturu tərəfindən 1 iş günü ərzində vergi ödəyicisinə bu Qaydanın 3 nömrəli Əlavəsinə uyğun olaraq bildiriş göndərilir.

5.1.2. Vergi Məcəlləsinin 34.7.2-ci maddəsinə əsasən vergi nəzarəti tədbiri zamanı vergi ödəyicisinin digər təsərrüfat subyektinin (obyektinin) uçot məlumatlarından fərqli məlumatlar əldə olunduqda:

5.1.2.1. Bu zaman vergi nəzarəti tədbirini həyata keçirən struktur tərəfindən əldə olunan fərqli məlumatlar barədə uçot strukturuna məlumat verilir və uçot strukturu tərəfindən bu barədə vergi ödəyicisinə bildiriş göndərilir. Eyni zamanda, məlumat dəyişikliyi digər təsərrüfat subyektinin (obyektinin) adı, fəaliyyət növü və icarə münasibətlərinin dəyişdirilməsi ilə bağlı olduqda həmin məlumatların yerində dəqiqləşdirilərək VCİS-də 5 iş günü ərzində yenilənməsi (obyektin faktiki əmlak, vergi məlumatlarının və fotoşəkillərinin) məqsədilə proqram təminatı vasitəsilə sahə təhkimçiliyi funksiyalarını həyata keçirən struktura ötürülür.

5.1.2.2. Bildiriş göndərildikdən 5 iş günü müddətində vergi ödəyicisi dəyişikliklərə dair ərizə təqdim etməzsə və sahə təhkimçiliyi funksiyalarını həyata keçirən struktur tərəfindən məlumat dəyişiklikləri təsdiq olunaraq VCİS-də yenilənərsə, uçot məlumatlarında dəyişikliklər vergi orqanı tərəfindən aparılır və bu barədə 3 iş günü müddətində vergi ödəyicisinə məlumat verilir.

## 6. Vergi ödəyicisinin filialının və nümayəndəliyinin və digər təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin dayandırılması və bərpası

6.1. Vergi ödəyicisinin filialının və nümayəndəliyinin fəaliyyətinin dayandırılması və bərpası vergi orqanına təqdim edilmiş müvafiq arayışa əsasən həyata keçirilir.

6.2. Vergi ödəyicisinin digər təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin dayandırılması aşağıdakı hallarda həyata keçirilir:

6.2.1. "Vergi ödəyicisinin, onun filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin və digər vergi tutulan əməliyyatlarının dayandırılması haqqında" arayışa əsasən.

6.2.1.1. Arayış icra edilərək digər təsərrüfat subyektinin (obyektinin) fəaliyyəti dayandırılır və bu barədə vergi ödəyicisinə uçot strukturu tərəfindən 1 iş günündən gec olmayaraq proqram təminatı vasitəsilə hazırlanmış, bu Qaydanın 8 nömrəli Əlavəsində göstərilən bildiriş göndərilir. Yerində araşdırma aparılması üçün məlumatlar dərhal proqram təminatı vasitəsilə sahə təhkimçiliyi funksiyalarını həyata keçirən struktura ötürülür.

